

## BƏDİİ SÖZ VƏ İNSAN
***(Elçinin bədii əsərlərində insan probleminin öyrənilməsi)***

Müasir elmi tədqiqatlarda insanın öyrənilməsinə ciddi əhəmiyyət verilir. Çoxtərəfli və çox istiqamətli araşdırmalar içərisində insanın sosial həyatının, psixoloji vəziyyətinin, mənəvi aləminin, xarakterinin müxtəlif aspektlərinin tədqiqinə də ciddi diqqət yetirilir. Bu baxımdan əbədi araşdırmalar, söz sənətində insan təsviri, bədii obraz və xarakter məsələsi də vacib tədqiqat obyektlərindən biri sayılır.

Ona görə də tədqiqatçılar haqlı olaraq ədəbiyyatı – insanı yenidən dünyaya təqdim edən sənət hesab edirlər. Bədii yaradıcılığın əsas qayəsi insanın həyatını, fəaliyyətini, sevinc və əzablarını, hiss və duyğularını dərindən öyrənməklə canlandırmaq, keçmiş, indi və gələcək arasında körpü yaratmaqla inkişafa xidmət etməkdir. Bu, eyni zamanda, ədəbiyyatın humanist məzmunu, cəmiyyətə fəal münasibəti ilə əlaqədardır. Bədii təvəkkür yolu ilə insanı öyrənməyin və təqdim etmənin estetik meyarları yaranmış və onun əsasında müxtəlif konsepsiyalar formalaşmışdır.

Ədəbiyyatda insan konsepsiyası mürəkkəb məsələ olduğuna görə onu fəlsəfi, sosial-siyasi, ideoloji istiqamətdən təhlilə cəlb edənlər, bu məsələ barədə bir-birindən fərqli elmi fikirlər söyləyənlər olsa da, onun sənətin başlıca amili olduğu inkare dilməzdir. Ədəbiyyat illərin, yüzillərin sınağından keçərək sübut etmişdir ki, onun əsas təsvir obyekti də, gələcəyə yönələn inkişafı da insan üzərində qurulmuşdur.

Minillərin sınağından keçən və zəngin təcrübəyə malik olan ədəbiyyat insan talelərinin, insan münasibətlərinin salnaməsidir. Ədəbiyyatda insan problemi, eyni zamanda qəhrəman prob lemidir, şəxsiyyət, sənətkarın və bədii obrazın xarak teri, yazıçının—qəhrəmanın estetik idealı məsələsidir. İnsanın cəmiyyətdə şəxsiyət kimi, xarakter kimi formalaşmasında, yetkinləşməsində ədəbiyyatın rolu ölçüyəgəlməz dərəcədə misilsizdir.

Ona görə bu problem cəmiyyətdə şəxsiyyətin rolu, insanın azadlıqları problemi ilə bağlıdır. İnsanın həyatı, dav ranışı, fəaliyyəti, insanlara münasibəti cəmiyyət daxilində mövcud olduğuna görə bu problem, eyni zamanda, cəmiyyətin prob lemidir. Cəmiyyətdəki insan-toplum, toplum-fərd (indi vid) məsələsi də eyni zamanda ədəbiyyatın əsas təsvir obyektidir. Fərd kimi insanın daxili "mən"i, onun sosial-psixoloji qav ramı, bu "mən"in cəmiyyətdəki mürəkkəb münasibətlərinin üzə çıxarıl ması həmişə yazıçıları dərindən düşündürmüş dür. Ədəbi qəh rəmanın bu münasibətlərdən doğan fərdi iztirab ları cəmiyyətlə şəxsiyyət arasındakı mövcud dramatizmi müəy yənləşdirir. Bütün bunlar isə bədii ədəbiyyatdakı konfliktlərin, fabulanın əsasını təşkil edir.

İnsanın cəmiyyətdə gedən dərin və mürəkkəb pro seslərdəki dəyişmələrini əks etdirmək, bədii üsullarla canlandırmaq yazıçıda daha yeni axtarışlar və təsvir üsulları tapmaq meylini gücləndirir.

Azərbaycan ədəbiyyatı öz inkişafının müxtəlif mərhələlərində insanı öyrənmək, təsvir etmək sahəsində çox böyük nailiyyətlər qazanmışdır. Ədəbiyyat tariximizi mərhələ-mərhələ təhlil etməklə bu sahədə əldə olunmuş və sabit kanonlar halına gəlmiş estetik meyarları müəyyən etmək mümkündür. İnsanın yeni meyarlar əsasında öyrənib söz sənəti vasitəsi ilə təqdim etmək sahəsində ədəbiyyatımızın 60-90-cı illər kimi rəngarəng və zəngin mərhələsi də böyük önəmə malikdir. Bu dövrün ədəbiyyatı yalnız bədii məhsulları ilə deyil, həm də elmə-tənqidi araşdırmaları ilə də diqqəti cəlb edir. Həm yaratdığı bədii əsərləri, çoxsaylı obrazları ilə həm də ədəbi prosesin təhlili baxımdan məhsuldar işləyən Elçinin geniş fəaliyyəti də bu prosesdə mühüm yer tutur. Bu baxımdan onun yaradıcılığında bədii təhlil yolu ilə insanın öyrənilməsi də ciddi maraq doğuran mövzulardandır.

Problemin ayrıca öyrənilməsi də yalnız Elçin yaradıcılığı üçün deyil, onun təmsil etdiyi nəsl və ədəbi mərhələnin təhlili baxımından olduqca maraqlıdır.

Bu baxımdan 60-90-cı illər ədəbiyyatı fonunda Elçinin yaradıcılığına həsr olunmuş N.Paşayevanın «İnsan bədii tədqiq obyekti kimi» (Bakı, "XXI" – Yeni nəşrlər evi, 2003) adlı monoqrafiyası da maraq doğurur. Mo noq ra fi yada qoyulan məsələlər və təhlilə cəlb olunan ədəbi əsərlər də belə bir qənaəti bir daha təsdiq edir ki, insani münasibətlər, şəxslərarası ünsiyyət, məhəbbət, konflikt, narazılıq və ziddiyyətlər ədəbi aləmdə insanı öyrənən, onun cəmiyyətdə yerini müəyyənləşdirən mühüm məsələdir.

Ədəbi qəhrəmanın xarakterinin üzə çıxarıl ması, obraz kimi bədii dəyərlər qazanması, ədəbi qəh rəmanın şəxsiyyətinin formalaşması, həyat mövqeyinin müəy yənləşməsi müasir insanın daxili-psixoloji aləminin təsviri son dövr ədəbi təhlillərdə daha çox vacib hesab edilir. Bədii obrazların təkamül prosesinin bir yazıçının yaradıcılığında, yaxud hər hansı bir əsərində diqqətlə izlənməsi gös tərir ki, son dövrlərin ədəbi cərəyanları və ədəbi prosesi qəh rəmanların hərəkət və davranışına, psixikasına, düşüncə tərzinə, intellektual vəziyyətinə, ictimai varlıq kimi fəaliyyətinə çox ciddi tə'sir göstərmiş və onun taleyinə mühüm yeniliklər gətirmişdir. 20-ci əsrin modern baxışları, mifik-fantastik düşüncələrə qayıdış, insanın mücərrəd taleyinin, insani ziddiyyətlərin qabarıq şəkildə üzə çıxarılması, bir tərəfdən sevgi və idealların genişliyi, digər tərəfdən fərdi-insanın imkanlarının məhdudluğu, fərdi təklənmə və cəmiyyətdən təcrid olunma və s. kimi vəziyyətlər ədəbi şəxsiyyət və qəhrəman konsepsiyasının xüsusi çəkisinin nə qədər art dığını göstərir.

Sənətkar istəyindən asılı olmayaraq həyatda mövcud olan konfliktlərin, faciəviliklərin, iztirablı ömür yolunun müəy yənləşdirdiyi insanın bədii görünüşü müasirliyi canlandıran va si tə dir. Monoqrafiyada qoyulan məsələlər və Elçinin təhlil edilən bədii əsərləri də sübut edir ki, zaman və dövr fonunda görünən insanın kontrastlığı, bədii boyaların aydın cizgiləri mü asir insanı bütöv, daha dolğun təqdim etməyə imkan verir. Görüş dairəsinin genişliyi, bə dii təsvir cizgilərinin kontrast lı ğı nın getdikcə artması müasir insanın daha dolğun təsvirinə kö mək edir.

İyirminci yüzilliyin ədəbi prosesində diqqəti çəkən cəhətlərdən biri də fərdiləşmiş insan konsepsiyasıdır, yə'ni insanın mikromühitinin təsvirinə diqqətin artmasıdır. Sadə adamların bədii obrazının yaradılması, onların sadə, adi həyatının böyük təsvir obyektinə çevrilib, qapalı həyatlarının aşkar canlandırılması geniş hal almışdır. Bu cəhət cəmiyyəti, bütöv lükdə isə insan həyatını canlandırmaq baxımından vacibdir.

İnsanın ayrıca — avtonom həyatının, təsviri və bu təsvirdə diqqətin daha çox insanın daxilinə yönəldilərək onun görünən və görünməyən xüsusiyyətlərinin təsviri cəmiyyətin bu günü və sabahı üçün əhəmiyyətlidir. Ədəbiyyatın bu yöndəki axtarışları insanların daxili aləminə daha geniş pəncərə açmağa imkan yaratmışdır. Ona görə də zahiri əlamətlərin təsvirindən çox mə'nəvi aləmin təsvirinə üstünlük verilmişdir. Bu proses özlüyündə bədii təsvirdə şəxsiyyətin daxili-mə'nəvi üfüqlərini genişləndirmişdir. Elçinin yaratdığı qəhrəmanlar və adi insanlar da bunu aydın göstərir.

- Haqqında söhbət gedən monoqrafiyada haqlı olaraq bu məsələlərə geniş yer verilmişdir. Bədii ədəbiyyatda insanın xarakterinin konfliktlərdə və mü barizələrdə formalaşdığı adi həqiqətdir. Lakin insan düş düyü mühitdə konfliktlərin müxtəlifliyi, ziddiyyətlərin kəskinliyi, mübarizənin daha da güclü olduğu zamanlarda da imkanları daxalində mübarizə aparır.

Monoqrafiyanın ayrı-ayrı fəsil və bölmələrində komeret təhlillərlə yanaşı ədəbiyaatın ümumi problemlərinə, bu sahədə aparılan elmi araşdırmaların müəyyən bir qisminə ötəri də olsa nəzər salır və müəyyən təhlillər aparmağa cəhd göstərilir. Problem geniş və çoxşaxəli olduğuna görə, haqlı olaraq əsərdə geniş ümumiləşdirmələrə o qədər də cəhd göstərilmir və əsas diqqət tədqiqat sahəsi kimi götürülmüş Elçin yaradıcılığına yönəldirilir.

Onu da qeyd edək ki, söz sənətində insan təsviri, bədii inikasın problemləri barədə meydana çıxan məsələlərə indiyədək müxtəlif müstəvilərdən və müxtəlif səviyyələrdə münasibət bildirilmişdir. Dövrə, ədəbi mühitə, yazıçıya, ədəbi janra görə insanın bədii təsvir vasitələri dəyişir və bu təsvirlər zaman-zaman yeni estetik biçimlərlə bədii konkretlik qazanır. Yaxşı haldır ki, monoqrafiyada bu mürəkkəb məsələlərə yeri gəldikcə, qismən də olsa münasibət bildirilir. Monoqrafiyada «Elçinin ədəbi qəhrəmanları", "Müasir Azərbaycan romanı və qəhrəman problemi", "Ədəbi tənqidin insanın bədii-estetik dərki ilə bağlı axtarışları" kimi fəsilləri maraqlıdır, aktualdır, aparılan təhlil və qənaətlər, ümumiləşdirmələr qənaətbəxşdir, ən önəmlisi isə yazıçının bu sahədə məhsuldar fəaliyyətinin dolğunluqla əks olunması ilə səciyyələnir.

Monoqrafiyada elə mövzular və problemlər var ki, təbii ki, onlar bir monoqrafiya məcrasına sığmır və bir müəllifin imkanları daxilində deyildir. Əsas odur ki, qoyulan məsələlər ciddi əhəmiyyət daşıyır və Elçinin yaradıcılığı fonunda ədəbiyyatımızın mühüm və mürəkkəb dövrü və qəhrəmanları haqqında geniş təsəvvür yaradır.

Qeyd olunduğu kimi ədəbiyyatda insan konsepsiyası çox mürəkkəb məsələdir. Dövr və mühitlə əlaqədar olaraq insanın inkişaf prosesi, şəxsiyyətin tərəqqisi, mə'nəvi zənginləşməsi, daxili duyğularındakı oyanışlar, ondakı intellektual və emosional-psixoloji imkanlarının ge niş lən məsi və s. kimi məsələlər bu konsepsiyanın əsas şərtlərindəndir.

Biz bu aktual mövzunu yenidən gündəmə gətirən, aktual elmi problemlərə müraciət edən və oxuculara maraqlı monoqrafiya təqdim edən müəllifə və belə mürəkkəb əhəmiyyətli problemi araşdıran ədəbiyyatşünaslara uğurlar arzu edirik.

İsmayıl Vəliyev,

***filologiya elmləri doktoru,***
***professor***